ISSN 2219-5882

# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

Elmi-nəzəri və praktiki jurnal

№ 2 (14)





2014

# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

**ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL**

**№ 2 (14)**

*"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq İSSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 saylı nömrə ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.*

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**Bakı – 2014**

# AZƏRBAYCANDA ALİ KİTABXANAÇILIQ TƏHSİLİ REGİONAL ƏMƏKDAŞLIQ FONUNDA

**E.Y. ƏHMƏDOV**
**pedaqogika üzrə fəlsəfə doktoru**

*Məqalədə kitabxanaçılıq – informasiya fakültəsinin yaxın keçmişdə və indi regional əməkdaşlığından və bu əməkdaşlığın təşkilində əməkdar elm xadimi, professor A. A. Xələfovun fəaliyyətindən bəhs olunur.*

**Açar sözlər:** *Təhsil, fakültə, mədəniyyət, institut*

XX əsrin 2-ci yarısından başlayaraq Azərbaycan ali kitabxanaçılıq təhsilinin müstəqil kitabxanaçılıq fakültəsinin yaranması, sonra isə fakültəyə gənc işgüzar dekan A.A.Xələfovun seçilməsi olmuşdur. Kitabxanaçılıq fakültəsinin ilk dekanı A.A.Xələfov işlədiyi müddətdə Azərbaycanda ali kitabxanaçılıq təhsili inkişaf etmiş, kitabxanaşünaslıq elmi formalaşmışdır. Azərbaycanda kitabxanaşünaslıq elminin formalaşması və bu elmin tədris prosesinə çevrilməsi, həmçinin mükəmməl tədrisin formalaşması məhz A.A. Xələfovun işgüzar fəaliyyəti nəticəsində bərqarar olmuşdur. Keçən əsrin II yarısından başlayaraq ittifaq məkanında olan Azərbaycan Respublikası bütün fəaliyyət sferalarında keçmiş ittifaqın müxtəlif qurumları ilə əlaqəli fəaliyyət göstərmişdir. Ali kitabxanaçılıq təhsilinin də formalaşmasında qarşılıqlı əlaqələrin mövcudluğu əhəmiyyətli rol oynamışdır. Keçən əsrin 60-cı illərindən başlayaraq kitabxanaçılıq fakültəsinin Moskva Dövlət Mədəniyyət İnstitutu ilə qarşılıqlı əlaqələri yüksək səviyyədə olmuş və bu proses özünü təhsil prosesinin təkmilləşdirilməsində biruzə vermişdir. BDU-nun kitabxanaçılıq fakültəsinin ittifaqın qabaqcıl fakültələri sırasına çıxması onu Moskva Dövlət Mədəniyyət İnstitutu ilə birbaşa əlaqələri sayəsində mümkün olmuşdur. Prof. A.A.Xələfov SSRİ-də kitabxanaçılıq-biblioqrafiya təhsili üzrə Elmi-Metodik Şuranın üzvü, SSRİ Dövlət Kitabxanasında fəaliyyət göstərən doktorluq dissertasiyaları üzrə ixtisaslaşdırılmış müdafiə şurasının üzvü, SSRİ Ali Attestasiya Komissiyasının eksperti olmuşdur. Prof. A.A.Xələfovun təşəbbüsü nəticəsində XX əsrin 70-80-ci illərində kitabxanaçılıq fakültəsinin Moskva Mədəniyyət İnstitutu ilə əlaqələr genişlənmiş və bu proses kitabxanaçılıq fakültəsinin SSRİ-nin ən qabaqcıl fakültələrindən birinə çevrilməsinə şərait yaratmışdır. Fakültə Kitabxanaçılıq-biblioqrafiya elmləri üzrə Bakı Dövlət Universiteti Elmi əsərlərinin xüsusi seriyalarını nəşr etdirirdi. SSRİ miqyasında Moskva Dövlət Mədəniyyət İnstitunun "Kitabxanaşünaslıq və biblioqrafiya" ixtisası üzrə Müdafiə Şurası müdafiəyə təqdim edilmiş çox sayda namizədlik və doktorluq dissertasiyalarının ekspertiza etmək üçün aparıcı müəssisə kimi BDU-nun Kitabxanaçılıq-İnformasiya fakültəsinin kitabxana-

şünaslıq kafedralarına göndərirdi. Fakültənin dekanı prof. A.A.Xələfov Moskva Dövlət Mədəniyyət İnstitutunda 3 doktorluq və 5 namizədlik dissertasiyalarının rəsmi apponenti olmuşdur. Eyni zamanda qeyd etmək lazımdır ki, prof. A.A. Xələfovun rəhbərliyiyi ilə aspirant və dissertantların böyük əksəriyyəti XX əsrin 70-80-ci illərində Moskva Dövlət Mədəniyyət İnstitutunda fəaliyyət göstərən 05.25.03 – Kitabxanaşünaslıq və biblioqrafiya ixtisası üzrə ixtisaslaşdırılmış müdafiə şurasında müdafiə etmişlər. Bu gün Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-İnformasiya fakültəsində çalışan professor-müəllim heyətinin böyük əksəriyyəti öz elmi və pedoqoji kariyeralarının qurulmasında Moskva Dövlət Mədəniyyət İnstitunun və onun kitabxanaçılıq fakültəsinin alimlərinin qayğısını xüsusi vurğulayırlar.

Prof. A.A. Xələfov dekan işlədiyi müddətdə kitabxanaşünaslıq elmi və ali kitabxanaçılıq təhsilinin koordinasiyalarını təmin etmək məqsədilə Moskva Dövlət Mədəniyyət İnstitutu ilə dostluq əlaqələrinin qurulmasına üstünlük vermişdir. Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsinin təhsil və elmi - tədqiqat sahəsindəki uğurları ittifaq miqyasında qiymətləndirilirdi. Məhz buna görədir ki, keçmiş ittifaqın Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Kitabxanaşünaslıq və biblioqrafiya" təhsili üzrə Elmi-Metodik Şurası Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakultələri ilə əlaqələri yaxınlaşdırmaq məqsədilə 1981-ci ilin oktyabr ayının 28-30-da Elmi-Metodik Şurasının iclasını Bakı şəhərində keçirdi. İclasda SSRİ-nin kitabxanaşünaslıq-biblioqrafiya ixtisası üzrə ən görkəmli alimləri və təhsil işçiləri, müxtəlif respublikaların yüksək ixtisaslı kitabxanalarda kitabxanaçı-biblioqraf hazırlayan bütün ali məktəblərindən gəlmiş görkəmli alimlər, rektorlar, dekanlar, kafedra müdirləri iştirak edirdilər. Moskva Dövlət Mədəniyyət İnsitutunun rektoru prof.L.P.Boqdanov, prof. A.A.Şilov, prof.S.M.Duboskas, prf. K.İ.Abramov, prof. A.B.Sokolov, prof. V.İ. Çepelov, dos. Q.Ş.İliçovo və b. çıxış etmişlər. Elmi – Metodik Şurada XXVI qurultayın qərarı ilə əlaqələr, "kitabxanaçılıq fakultəsinin və ali məktəblərin vəziyyəti" məsələləri müzakirə edilmiş və geniş qərar qəbul olunmuşdur. Elmi-Metodik Şuranın qərarında Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi və dakan prof. A.A. Xələfovun fəaliyyətini yüksək qiymətləndirmişdir. Elmi-Metodik Şuranın iclasından sonra BDU-nun kitabxanaçılıq fakültəsi və Moskva Dövlət Mədəniyyət İnstitutu arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Bu müqavilə Bakı Dövlət Universiteti Kitabxanaçılıq fakültəsinin dekanı prof. A.A. Xələfov və Moskva Dövlət Mədəniyyət İnstitutunun rektoru prof. L.P. Boqdanov tərəfindən imzalanmışdır. Bu müqavilənin şərtlərinin yernə yetirilməsi kitabxanaçılıq fakültəsinin gələcək inkişafına və yüksək ixtisaslı kadr hazırlanmasına böyük kömək etdi.

Keçən əsrin 80-ci illərində Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsi ittifaq miqyasında tədris planlarının hazırlanması sahəsində təqdirəlayiq uğurlar qazanmışdır. Fakültə kitabxanaçılıq-biblioqrafiya ixtisası üzrə strateji əhəmiyyətə malik, XXI əsrdə belə tədris planlarının baza hissələri kimi istifadə edilən tədris planlarının hazırlanmasında mərkəzə çevrilmişdir. 1988-ci ilin ittifaqda yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf kadrlar hazırlayan dövlət universitetləri və pedaqoji institutlar üçün yeni tədris planı tərtib etmək məqsədilə xüsusi komissiya yaradılmışdır. Bakı Dövlət Universitetini kitabxanaçılıq fakültəsinin dekanı pro. A.A.Xələfov həmin komissiyanın sədri seçilmişdir. Belə bir məsuliyyətli komissiyaya rəhbərlik professor A.A.Xələfova olan yüksək etimadın nəticəsi idi. SSRİ miqyasında görkəmli alim kimi tanınan professor A.A.Xələfov Moskvada, Kiyevdə, Daşkənddə namizədlik və doktorluq dissertasiyalarının müdafiəsində apponent və Şura üzvü kimi çıxış edirdi . Məhz prof.A.A.Xələfovun xidmətləri nəzərə alınaraq Moskva Dövlət Mədəniyyət İnstitutunun rektoru L.P. Boqdanovun təklifi ilə Elmi Metodik Şuranın növbəti iclası Bakı şəhərində keçirilmişdir.

XX əsrin 70-80-ci illərində Moskva Dövlət Mədəniyyət İnstitutu, həmçinin digər ali məktəbləri ilə qaqrşılıqlı fəaliyyətindəki uğurlara görə prof. A.A.Xələfov dəfələrlə qiymətləndirilmişdir. O, 1970-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin "V.İ.Leninin 100 illiyi medalı", 1984-cü ildə SSRİ Mədəniyyət Nazirliyi Kollegiyasının və Mədəniyyət İnstitutunun Həmkarlar ittifaqı Rəyasət Heyətinin qərarı ilə "N.K.Krupskaya medalı" ilə, 1987-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Əmək veteranı" medalı ilə təltif edilmişdir. Prof. A.A.Xələfovun fəaliyyətinin yüksək səviyyədə qiymətləndirilməsi təbii ki, Azərbaycanda ali kitabxanaçılıq təhsili və kitabxanaşünaslıq elmi sahəsindəki uğurları ilə bağlı olmuşdur.

Müstəqillik illərində Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakultəsinin Moskva Mədəniyyət və İncəsənət İnstitutu ilə əlaqələrinin davamlı olmasında Əməkdar elm xadimi, prof. A.A.Xələfovun təşəbbüskarlığı nəticəsiz qalmamışdır.

Müstəqillik illərində kitabxanaçılıq-informasiya sahəsində dissertasiya işlərinin yerinə yetirilməsində Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin alimləri yaxından iştirak etmişlər. 2000-2002-ci illərdə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Karatıgina Tatyana Fedorovna Bakı Dövlət Universitetində kitabxanaçılıq-informasiya ixtisası üzrə ixtisaslaşdırılmış Müdafiə Şurasının üzvü qismində dəfələrlə iştirak etmişlər.

Fakültənin regional əməkdaşlığının genişləndirilməsi istiqamətində Başqırdıstan Dövlət Pedoqoji Universiteti ilə elm və təhsil sahəsində qarşılıqlı əlaqələr yaradılmışdır. Belə ki, 2014-cü ildə Başqırdıstan Dövlət Pedoqoji Universitetinin əməkdaşı R.A.Qilmiyanov Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsində olmuş, Əməkdar Elm Xadimi, prof.

A.A.Xələfovun elmi məktəbi ilə tanış olmuş və elmi seminarda öz dissertasiyasının aprobasiyası məqsədilə məruzə etmişdir. Bundan sonra Başqırdıstan Dövlət Pedoqoji Universitetinin bir qrup bakalavr və magistrləri fakültədə 10 gün müddətində ezamiyyətdə olmuşlar. Onlara kitabxana-informasiya fakültəsinin müasir problemlərindən mühazirələr oxunmuşdur.

Hal-hazırda Azərbaycan ali kitabxanaçılıq təhsili Azərbaycan kitabxanaşünaslıq elmi tarixi əlaqələri davam etdirərək öz inkişaf mərhələrini yaşayır. Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının Akademiki, prezident təqaüdçüsü, Şöhrət ordenli, görkəmli Azərbaycan ziyalısı prof. A.A.Xələfov müasir informasiyalaşdırılmış cəmiyyətdə kitabxanaçılıq-informasiya təhsili, müasir kitabxanaşünaslığın problemlərinin dünya təcrübəsi istiqamətində formalaşmasına rəhbərlik edir, eyni zamanda, dünyanın qabaqcıl təhsil müəssisələri ilə, o cümlədən tarixi əlaqələri olan Moskva Mədəniyyət və İncəsənət Universiteti ilə, Xarkov Dövlət Universiteti ilə, Başqırdıstan Dövlət Pedoqoji Universiteti ilə bu əlaqənin davam etdirilməsinə əzmlə çalışır.

**Regional cooperation in higher education in the light library**
**E.Y.Ahmedov**

**Summary**

*Input a word in the article Scientific Pedagogical activities prof. A.A.Halafova and regional cooperation of the faculty of Library and Information Department, BSU during the last years.*

**Keywords:** *Education, schools, cultural institutions*

**Высшый библиотечно образование в фоне регианльное сотрудничесва**
**Э.Й.Ахмедов**

**Резюме**

*В статие расматривается научно-педогогическое деятельность проф. А.А.Халафова и региональное сотрудничество профессорско-преподавательского состава библиотечно-информационного факультета БГУ в период последных лет.*

**Ключевые слова:** *Образование, школы, учреждения культуры*